Məsələ 17. Verìlmìş «Yazda» adlı mətndə, səhv getmìş «qulaq» sözünü «bulaq» sözü ìlə əvəz edən proqram yazmalı.

```
program Redaktor;
uses Crt;
var Yazda, qulaq, bulaq: string;
   i,k:integer;
begin
   clrscr;
   write('Yazda verilsin:');
   readln(Yazda);
   write('pozulacaq fraza verilsin:');
   readln(qulaq);
   write('yazIlacaq fraza verilsin:');
   readln(bulaq);
   k:=length(qulaq);
   for i := 1 to length(Yazda)-k do
     if copy(Yazda,i,k)=qulaq then
```

```
            begin
            delete(Yazda,i,k);
            insert(bulaq,Yazda,i)
            end;
      writeln(Yazda);
      readln;
end.
```

Çalışma 17. «Yazda» adlı bir mətn tərtib edib 17 –ci məsələni sərbəst seçdiyiniz şərtə uyğun olaraq həll edin.

Məsələ 18. 'Biz Odlar yurdunu sevirik!' sətrinin simvollar sayını və sətrin ikinci sözünü tapıb ekrana verə bilən proqram yazın.

```
program Odlar yurdu;
uses Crt;
const r1:string = 'Biz Odlar yurdunu sevirik';
var i,k,m,n1,n2: integer;
begin
    clrscr;
    m:=0;
    k:=length(r1)   {simvol sayma}
    writeln(`uzunluq k=`,k);
    for i:=1 to k do {bir-bir yoxlamaqla}
    if r1[i]='' then {ara simvolu aramaq}
begin
    m:=m+1;
    {ilk ara simvolunu axtarmaq}
    if m=1 then n1:=i;
    {ikinci ara simvolunu tapmaq}
    if m=2 then n2:=i
end;
{cavab ekrana verilir}
for  i:= n1+1 to n2 –1 do write(r1[i]);
readln;
end.
```

Çalışma 18. Ara simvolu tapmaq üçün –**pos** funksiyasını və ikinci sözü seçib ekrana çıxarmaq üçün **-delete** proseduraşını tətbiq edərək 18 –ci məsələni həll edin.

§8. İçproqramlar.

Göründüyü kimi, bu kitabda təqdim olunan proqram nümunələri olduqca sadə və kiçik həcmlidir, çünki bu proqramlar yalnız tədris məqsədi daşıyır. Lakin getdikcə müasir həyatın ən gözlənilməz sahələrinə belə tətbiq olunan

praktìk proqramların ìsə nə qədər çoxşaxəlì və əndazəsìz olduğunu təsəvvür etmək çətìn deyìl. Bu cür proqramların mürəkkəb alqorìtm və strukturası da öz növbəsìndə -*struktur proqramı* deyìlən bìr konsepsìyanın tətbìq olunmasını tələb edìr.

Struktur proqramları –özündə əsasən aşağıdakı prìnsìplərì cəmləşdìrìr:

- Qarşıya qoyulmuş məsələnìn analìzì və həll alqorìtmìnìn ayrı-ayrı sadə hìssələrə bölmək.
- Bütün hìssələrì detallaşdıraraq müvafìq prìorìtet əsasında ìçproqramlar tərtìb etmək.
- İçproqramlarda –sadə, budaqlanma, dövr, vaxttənzìmləyìcì və s. kìmì baza əmrlərìnì səmərəlì ìstìfadə etmək.
- Proqramı abonentlərə aydın olan bìr formada yazmaq.
- Şərtsìz keçìd əmrlərìndən mümkün qədər az ìstìfadə etmək.
- Proqram fəalìyyətìnì ìş ərəfəsìndə və ìş prosesìndə məntìqì baxımdan yoxlamaq və s.

Burada detallaşma, əsasən -alqorìtmìn yuxarıdan aşağıya mərhələ – mərhələ şaxələnməsì və addım-addım yoxlanması prìnsìpì üzrə həyata keçìrìlìr.

Proqramda bu və ya dìğər bìr sahənì əhatə edən ìçproqramlarda hansı baza əmrlərìnì ìşlətməyìn səmərəlì olacağı da müəyyən edìlməlìdìr. Onu da deyək kì, ìstənìlən dərəcədə mürəkkəb alqorìtmlərìn –sadə, budaqlanma və dövr bəndlərì əsasında qurula bìlməsì artıq sübuta yetìrìlmìşdìr.

Struktur proqramlarında sìstemsìz keçìd əmrlərì proqramın oxunuşunu çətìnləşdìrdìyì üçün onların mümkün qədər **ìf-then-else, case, while** kìmì əmrlərlə əvəz olunması daha səmərəlì sayılır.

Zərurì hallarda proqramın ìdarəsìnì bəzì əmrlərdən almaq üçün **-exit, break, continue** və **halt** kìmì çıxış əmrlərì tətbìq olunur.

Proqramın ìşìnə nəzarət etmək üçün, əsasən dəyìşənlərìn qìymətlər cədvəlìnì tərtìb etmək üsulundan genìş ìstìfadə edìlìr.

Struktur proqramlarını təşkìl edən ìçproqramları ìstənìlən nahìyədən və lazımı dəfə çağırmaq olar. Qeyd edək kì, ìçproqramlar əsasən ìkì cür: *funksìya - ìçproqram* və *prosedura - ìçproqram kìmì* fərqlənìr. Proqramda **System, Crt, Dos, Graph** standart modullarının –**procedure** və **function** bölmələrìndə təqdìm olunan standart *abonent ìçproqramlarından* ìstìfadə etmək ìsə olduqca sərfəlìdìr.

2. Procedure –ìçproqramı:

```
procedure  <ad>(<formal parametrlər sìyahısı>);
                    <proseduraların təqdìmat bölməsì>;
                beqın
            <prosedura əmrlərì bölməsì>;
```

```
        end;
```

formada tərtìb olunur. Burada:

- formal parametrlər sìyahısında dəyìşən və onların tìplərì sadalanır.
- verìlən ünsürlər parametr–arqument, alınan cavablar ìsə parametr-nətìcə adlanır və bu parametrlər dəyìşənlər kìmì **var** bölməsìndə sadalanmalıdır.

Məs. Hər dəqìqəsì 500 man. və 20% əlavə xərc tələb edən telefon danışıõını hesablamaq üçün:

```
procedure Tel_hesab(k:integer; var c:real);
            begin
                  c := k*500;
                  c := c + 0.2*c;
            end;
```

kìmì bìr ìçproqram yazmaq olar kì, burada: k –danışıq müddətìnì ìfadə edən *arqument* -və ya parametr - arqument, c -ìsə k müddət üçün yekun danışıq haqqı - və ya parametr - nətìcədìr.

Proqramın ìstənìlən nahìyəsìndən və ya dìgər bìr ìçproqramdan procedure əmrìnə aşaõıdakı kìmì müracìət etmək olar:

```
<proseduranın adı> (<faktìkì parametrlərìn sìyahısı>);
```

Qeyd edək kì, müracìət əmrlərìndə sadalanan bu cür faktìkì para-metrlər də arqument və nətìcə kìmì fərqlənìrlər. *Faktìkì arqumentlər* –sabìt, dəyìşən və ya ìfadə formasında ola bìldìyì halda, f*aktìkì nətìcə* –yalnız dəyìşən ola bìlər və onların tìpì müracìət əmrìndə verìlmìr.

Müracìət əmrìndə -verìlən hər faktìkì arqumentìn qìymətì procedure əmrìndə sadalanan müvafìq formal arqumentə verìlìr, sonra ìsə, hər faktìkì nətìcə müvafìq formal nətìcənìn qìymətìnì mənìmsəyìr. Əlbəttə bu zaman uyõun faktìkì və formal parametrlərìn adları eynì olmaya bìlərsə də tìplərì bìr-bìrìnə uyuşan olmalıdır.

Əsas proqramın **var** əmrìlə verìlən dəyìşənlər *qlobal dəyìşənlər* olub ìstənìlən ìçproqramda belə ìşləyə bìlər, lakìn procedure ìçproqramında verìlən dəyìşənlər ìsə *lokal dəyìşənlər* sayılır və yalnız öz tərkìbìndə ìşləyə bìlər. Başqa sözlə, procedure əmrìndə *qlobal dəyìşənlər* tanınır və demәlì burada formal nətìcə parametrlərìnì sadalamaõa ehtìyac qalmır.

Məsələ 19. ATS –ə daxìl olan zənglər sayı ìlə baõlı verìlən 11 –cì məsələnì aşaõıdakı proseduraların köməyì ìlə həll edək:

1) Bir_say –hər sanìyədə daxìl olan zənglərìn sayı.
2) On_say – ìlk 10 sanìyədə daxìl olan zənglərìn sayı.
3) Max_say -bìr sanìyədə daxìl olan maksìmal zəng sayı.

Tutaq kì, k –cı sanìyədə daxìl olan zənglərìn sayı y(k)=random(k) təsadüfì funksìyası ìlə təyìn olunan tam ədəd olsun və

- bì.r sanìyədə daxìl ola bìləcək zənglər sayını –birsay
- bu saylardan ən böyük olanı -maxsay
- 10 sanìyədə daxìl ola bìləcək cəmì zənglər sayını –onsay

ìlə ìşarə etməklə bu proqramı aşaõıdakı kìmì tərtìb etmək mümkündür:

```
program ATS;
uses Crt;
type birsay = array[1..10] of integer;
var y : birsay;
   maxsay, s : integer;
procedure On_say(var y : birsay);{prosedure On_say}
var i: integer;
begin
   for i:=1 to 10 do
     begin
     y[i]:=random(i);
     writeln('y(',i,')=',y[i]:5);
     end;
end;
procedure On_say(y : birsay; var s:integer);
                                                {prosedure On_say}
var i:integer;
begin
    s:=0
    for i:=1 to 10 do s:=s+y[i];
    writeln(`On sani.say S=`,s:3);
end;
procedure Max_say(y:birsay; var maxsay:integer);
var i:integer;
begin
    maxsay := y[1];
    for i:=2 to 10 do
        if maxsay < y[i] then maxsay := y[i];
    write(`Bir san. maksimal`)
    writeln(`miqdarda say`,max:3)
end;
begin
    clrscr;
    randomize;
```

```
    Bir_say(y);  {proseduralara xitab}
    On_say(y,s);
    Max_say(y,maxsay);
    readln;
end.
```

Çalışma 19. 19 –cu məsələdə – ATS –ə hər sanìyədə daxìl olan zənglər sayını, metro keçìdìndən hər dəqìqədə keçən sərnìşìnlər sayı ìlə əvəz etməklə dəyìşdìrərək alınan məsələnì həll edìn.

3. Function –ìçproqramı:

```
function  <ad>(<formal parametrlwr>);
                                    <funksìyanın tìpì>;
        <funksìiyanın təqdìmat bölümü>;
      begin
     <ad := ìfadə>
  end;
```

formada tərtìb olunur və proseduradan fərqlì olaraq xìtab bölümünə yalnız bìr standart tìplì cavab qaytarır. function ìçproqramına aşaõıdakı formada xìtab edìlìr

```
<ad> (<faktìkì parametrlər>);
```

və cavablar əsas proqrama, standart funksìyalarda olduõu kìmì- - funksìyanın adıyla qaytarılır.

Məs. tg(x) –ìn qìymətìnì almaq üçün **function** tərtìb edərək tg(x) +ctg(x) +tg^2(x) ìfadəsìnì aşaõıdakı proqramla hesablaya bìlərìk.

```
program tg_func;
uses Crt;
var x,y:real;
function tg(x:real):real;
begin
        tg(x)=sin(x)/cos(x);
end;
begin
        clrscr;
        writeln('x –i verin');
        readln(x);
        y := tg(x)+1/tg(x)+ sqr(tg(x));
        writeln('y =', y:5:2);
        readln;
end.
```

Məsələ 20. Tutaq kì, boyaqçı emalatxanasında 6 növ rəngdən ìstìfadə edərək 10 çeşìddə boya hazırlanır və j –cì çeşìdə vurulan ì –cì növ rəngìn mayası (məsrəfì)

$m_{ij} = 2|\ln(ì)| + j$, ì =1, 2,..,6; j = 1, 2, .. , 10 düsturu ìlə hesablanır.

Elementlərì m_{ij} olan m massìvìnì tərtìb edərək 3 –cü rəngdən mìnìmal mìqdarda tələb edən çeşìdì tapıb nətìcələrì ekpana çıxaran struktur proqramı tərtìb etməlì.

Proqramda ì –cì çeşìdì –imin və ona işlənən 3 –cü növ rəngìn mìnìmal mìqdarı –min kìmì ìşarə edìlìr.

```
program Boyaq;
uses Crt;
const k =6, n =10;
type maya = array[1..k, 1..n] of real;
var i, j, imin: integer;
   min: real;
   m: maya;
function boya(i,j:integer):real;
begin
    boya :=2*abs(ln(i))+j;
end;
procedure Mass(var m : maya);
var i, j : integer;
begin
  writeln('                Boya');
  writeln('       1    2   3   4   5   6');
  for i:=1 to 6 do {m massivi qurulur}
  begin
   write(i, ' növ');
   for j:=1 to 10 do
   begin
    m[i,j]:=boya(i,j);
    write(m[i,j]:7:2);
   end;
   writeln;
  end;
end;
procedure Minimal(m:maya; var imin:integer);
var   i, j : integer;
          min : real;
begin
          imin :=1;
          min := m[1,3];
          for i :=2 to k do
          if m[i,j] < min then
```

```
            begin
            min := m[i,3];
            imin := i;
            end;
        write(imin, 'növü');
      writeln('daha az maya aparIr');
      readln;
end;
begin
clrscr;
Mass(a);
Minimal(m, imin);
readln;
end.
```

Çalışma 20. 14 –cü çalışmanı struktur proqramı tərtìb etməklə həll edìn.

Əlbəttə bu cür - tədrìs xarakterlì, sadə proqramlardan fərqlì olaraq, əməlì məqsəd daşıyan -çox böyük və mürəkkəb proqramlar adətən kollektìv işìn məhsulu olub çoxsaylı praktìk yoxlamalardan keçìrìlìr. Təsadüfì deyìldìr kì, Microsoft Corporation, IBM Corporation və s. bu kìmì nəhəng fìrmalarda, ayrı-ayrı sahələr üzrə yüzlər və bəzən də mìnlərlə mütəxəssìs çalışır. İstehsalatın, nəqlìyyatın bu və ya dìgər sahələrìnə xìdmət edən bìr çox proqramlar, bəzən hətta ümumdövlət səvìyyəlì bìr məsələ kìmì qarşıya qoyularaq bìr çox struktur proqramlarından ìbarət sìstem kìmì ìşlənìb hazırlanır.

4. *Rekursìv funksìyalar* –əsasən functionların öz-özünə xìtab etməsìlə təşkìl olunan dövrü proses kìmì təzahür edìr. Başqa sözlə desək, *rekursìya* – funksìya qìymətlərìnì özünə arqument kìmì təqdìm etməklə əldə edìlìr. Rekursìyanın təşkìlìndə *axın* anlayışı da genìş tətbìq olunur. *Axın* –fəal yaddaşda, qəbul etmə ardıcıllıõına əks növbəylə xarìc etmə prìnsìpì üzrə saxlanan elementlər toplusudur.

Məs. m –dən n –ə qədər tam ədədlərìn cəmìnì hesablamaq üçün aşaõıdakı kìmì rekursìv fuhksìya qurmaq olar.

```
function Toplama(m,n:integer):integer;
begin
    if m = n then Toplama := m
    else Toplama := n+Toplama(m, n-1)
end;
```

Bu ìçproqram, məs. Toplama(3,5)ìfadəsìnì aşaõıdakı ardıcıllıqla hesablayır:

Toplama(3,5)=5 + Toplama(3,4)=5 +4 +Toplama(3,3)= 5+4+3.

Yənì, blok toplamanı ìkì etapda yerìnə yetìrìr: -əvvəlcə 5, 4, 3 ədədlərìndən *axın* təşkìl edìr, -sonra ìsə onları tərs sırayla toplayır.

Məsələ 21. İlk n natural ədədìn hasìlìnì n! =n(n-1)! –düsturunu (0!=1, 1!=1) ardıcıl olaraq tətbìq etməklə hesablamaq üçün rekursìv funksìya qurmalı.

```
function Vurma(n:integer):integer;
begin
    if n =0 then Vurma:=1
    else Vurma := n * Vurma(n-1)
end;
```

Bu functionla 4! –ın qìymətì aşaõıdakı etaplarla hesablanır:

Vurma(4)=4.Vurma(3) =4.3.Vurma(2)=

=4.3.2. Vurma(1)=4.3.2.1.Vurma(0)=4.3.2.1.1

Demək burada axın 4, 3, 2, 1, 1 sırasıyla daxìl olub hasìl 1.1.2.3.4= =24 kìmì ardıcıllıqla yerìnə yetìrìlìr.

Çalışma 21. Bìrìncì həddì 30, 8 –cì həddì 46 olan ədədì sìlsìlənìn ìlk n həddìnìn cəmìnì tapmaq üçün rekursìv funksìya daxìl olan proqram yazın.

5.*Açıq massìvlər* -ìçproqramların formal parametrlərì sìyahısında verìlən, ölçüsü əvvəlcədən bəllì olmayan massìvlər olub aşaõıdakı formada təqdìm olunur:

```
<ad> : array of <baza tìpìnìn adı>;
```

Bu cür formal massìvlərìn elementlərì 0 –dan başlayaraq nömrələnìr və sonuncu elementìnìn nömrəsì standart **high** funksìyasıyla:

```
high(<massìvìn adı>).
```

formada öyrənìlə bìlər.

Açıq massìvlərdən, prosedurada dəyìşən ölçülü massìvlərlə ìşləmək üçün ìstìfadə olunur.

Məsələ 22. İçproqramların köməyìlə, elementlərì uyõun olaraq

y_m =fy(m) =random(m), m = 1, 2, .., 7 və g_n =fg(n) = n^2 /2,

n = 1, 2, .., 9 düsturlariyla hesablanan y və g massìvlərì qurun. Hər massìvdə 4 –dən böyük elementlərìn sayını tapıb nətìcələrì ekrana çıxarın.

```
program Struktur;
{$F+}
uses crt;
type        fu =function(n:integer):real;
var         y:array [1..7] of real;
            g:array [1..9] of real;
function fy(m:integer):real;
begin
```

```
            y:=random(m)
end;
function fg(n:integer):real;
begin
g := n*n/2
end;
procedure Yarat(f:fu; var z: array of real);
var i:integer;
begin
            for i:=0 to high(z) do
                        begin
                        z[i]:=f(i+1);
                        write(z[i]:5:2);
                        end;
            writeln
end;
function top(z:array of real):integer;
var i,k:integer;
begin
            k:=0;
            for i:0 to high(z) do
                        if z[i]>4 then k:=k+1;
            top:=k
end;
begin
            clrscr;
            randomize;
            Yarat(fy,y);
            Yarat(fg,g);
            write(`AxtarIlan element sayI y -`);
            writeln(`k=`,top(y):3);
            write(`AxtarIlan element sayI g -`);
            writeln(`k=`,top(g):3);
            readln
end.
```

Dìqqət edìn kì, bu proqramda ìlk dəfə olaraq.

```
type            fu =function(n:integer):real;
```

bölümündə function tìpì verìlərək fy(x) və fg(x) funksìyaları da bu tìpə aìd edìldì, beləlìklə də bìr proseduraylа müxtəlìf massìvlər qurmaq mümkün oldu.

Həmçinin bu səbəbdən proqrama zərurì içproqram modelinì(far-model) tənzìm edən {$F+} dìrektìvì daxìl edìldì.

Çalışma 22. 22 –cì məsələnì y_m =fy(m) =random(m), m = 1, 2, .., 9 və g_n =fg(n) = $(n + 1)^2$ /2; n = 1, 2, .., 14 düsturlariyla hesablanan y və g massìvlərì üçün dəyìşdìrməklə həll edìn.

6. *Standart modullar* –genìş ìstìfadə olunan unìversal təyìnatlı içproqramlar olub bìr «kìtabxana» adı altında cəmləşmìş olurlar.

Modul –özündə sabìt, dəyìşən ünsür tìplərì və içproqramlar bìrləşdìrən proqram vahìdì olub standart və abonent modulları kìmì fərqlənìrlər.

Standart modullar.

System	Çoxìşlənən prosedura və funksìyalar sìst.
String	Sətìr dəyìşənlərì ìlə ìşləyən funksìyalar.
Printer	Prìnterlə ìşləmək üçün proqram modulu.
Graph	Qrafìkqurma prosedura və funksìyaları.
Overlay	Böyük proqramlarla ìşləmək üçün modul.
Dos, Windows	Paskal proqramı gedìşìndə Əməlìyyat sìstemì əmrlərìnìn ìşləməsìnə ìmkan verìr.
Graph3, Turbo3	TP versìyaları arasında uyarlıq saxlayır.

Modulları **uses** əmrìlə hər hansı bìr proqramın ìşìnə

```
uses <modulların adlar sìyahısı>;
```

formada cəlb etmək olur.

Sustem modulundan ìsə, proqramlar elə-belə də (yənì, ona müracìət etmədən belə -avtomatìk olaraq) ìstìfadə edə bìlìrlər. **read, readln, write, writeln** proseduralarını və sìn, cos və s. standart funksìyaları da proqramlar elə məhz bu moduldan alırlar.

Sustem və Crt modullarına aìd olan əsas proseduralar.

exit	Əsas proqramın ìşìnì saxlamaq və ìçproqramdan çıxmaq üçün ìşlənìr.
halt	Proqramı saxlayıb ìdarənì Əməlìyyat sìstemìnə verìr.
break	for, while, və repeat dövrlərìndən məcburì çıxma.
continue	for, while, və repeat dövrlərìndə növbətì ìterasìyanı başlamaq üçün ìşlənìr.
delay(n)	Carì əmrìn ìşìnì abonentìn verdìyì vaxt (n san) ərzìndə (mìkro san. dəqìqlìklə) saxlayır.
clrscr	ekranı təmìzləyìr.
textcolor	Mətnə 0, 1, .. , 15 ədədlərì ìlə verìlən rəng.
textbackground	ekran fonuna rəng verìr.

Habelə:

- **Crt** modulunda, -proqramı gözləmə rejìmìnə keçìrməklə abonentìn qırpdıõı sədəfìn qìymətìnì alan **readkey** və ìstənìlən sədəfì qırpanda **true** məntìqì dəyərìnì alan **keypressed** funksìyaları və s. yerləşìr.
- Paskal proqramı rejìmìndə fayllar sìstemì ìlə işləmək üçün nəzərdə tutulmuş prosedura və funksìyalar ìsə **Dos** modulunda yerləşìr.

Onlara, carì proqram daxìlìndən:

exec('<exe faylın bütöv adı>','<proqramın parametrlərì>' və ya").

kìmì müracìət etmək olar.

Lakìn **exec** prosedurası işlənən proqrama **M** dìrektìvìnì də:
–məs. {$M $2000,0,1000} parametrìlə- qoşmaq lazımdır.

- Proqram və ya onun fraqmentlərìnìn ìş vaxtının xronometrìyası, və tarıx göstərìcìlərìlə ìşləmək üçün aşaõıdakı proseduralar tətbìq edìlìr:

GetTime(Hour, minute, Second, SotiSec)

-{carì vaxta -saat, dəqìqə, sanìyə və mìllìsanìyə ölçülərìnə müvafiq qìymət verìlìr}.

GetDate(Year, Month, Day, Number)

-{ carì tarìxə **-Vord** tìpì sìyahısından ay, gün, həftənìn günü göstərìcìlərìnə uyõun qìymətlər verìr }

Tapşırıq. Standart modullar və yuxarıda şərh olunan proseduralardan ìstìfadə etməklə bìr proqram nümunəsì hazırlayın.

7. *Abonent modulları* –**unit,** müəyyən qaydalara uyõun olaraq aşaõıdakı strukturda tərtìb olunur:

```
unit <ad>;
interface   {Ìnterfeys bəndì}
        <şərh bölməsì>
implementation  {ìşçì blok}
  <abonent ìçproqramları mətnì>
begin
  <hazırlıq bloku>
end.
```

Abonent öz moduluna münasìb ad seçìr. Şərh bölməsìndə gərəklì modul və ìçproqramlar göstərìlìr, sabìt, dəyìşən və s. ünsür tìplərì tanıdılır.

İşçì blokda ìçproqram mətnlərì, şərh bölümündə adlarının sadalanma sırasına müvafiq ardıcıllıqla yazılır. Parametrlər artıq başlıqların şərhìndə verìldìyì üçün burada buraxıla bìlər. Bìr çox proqramlar üçün ümumì olan

sabit, dəyişən və ünsür tiplərinin şərhi kimi, bəzi hallarda interfeys və işçi bloklar da boş verilə bilər.

Hazırlıq bölümündə ilkin verilənlərì tanıtmaq, fayl açmaq və s. mümkündür. Odur ki, bu blok hələ əsas proqramın əmrlərindən əvvəl fəaliyyətə başlayır. Bu blok lazım olmadığı hallarda isə **begin** əmrini də yazmağa ehtiyac qalmır.

Məs. tg(x) və x^y funksiyalarını təyin edib ekranı təmizləyən modul tərtib edək.

```
unit BizimModul;
interface
uses Crt;
function tg(x:real):real;
function step(x,y:real):real;
implementation
function tg(x:real):real;
begin
        tg(x):=sin(x)/cos(x)
end;
function step(x,y:real):real;
begin
        step:=exp(y*ln(x))
end;
begin
        clrscr
end.
```

İçproqramları modula çevirmək üçün TP menyusunun **Compilo/Destination** punktuna **Disk** dəyərì verilərək translyasiya (Ctrl + F9) edilir. Nəhayət diskdə yalnız **.tpu** genişləməsilə eynì adda fayl alınır.

Məs. **BizimModul** –dan istifadə edərək tg(x) və 1.3^5 ifadələrini hesablayaq.

```
program UseModul;
uses Bizimmodul;
var x,y,a,b,c:real;
begin
        a:=1.3;
        b:=5;
        writeln(`x –i verin:`);
        readln(x);
        y:=tg(x);
        writeln(`tg(`,x:5:2,`)=`,y:6:2);
```

```
        c:=step(a,b);
        writeln(`1.3^5=`,c:5:2);
        readln
end.
```

Tapşırıq. Modul və proqramdan istifadə edərək ctg3x+3tgx ifadəsinin qiymətini hesablayın.

Abonent lazim bildiyi modulları aşağıdakı əmrlə bir kitabxanaya (məs. BizimKit.tp1 adlı) yığa bilər:

```
tpuMover <faylın tam ünvanı> \ BizimKit.tp1/+BizimModul
```

BizimKit.tp1 faylını tupbo.tp1 kimi sistem faylları olmayan kataloqa yerləşdirmək lazımdır.

Tapşırıq. Standart və abonent modullarını birgə cəlb etməklə öz zövqünüzə uyğun sadə bir proqram yazın.

§9. Yazılar

1. Y*azı* –**record:** müxtəlif tiplərdən ibarət qarışıq yazıları fəal yaddaşda saxlamaq üçün nəzərdə tutulmuş ünsür tipidir. Yazı tərkibinə qatılan hər tip – «alan» adlanaraq **var** yaxud **type** bölümündə aşağıdakı formada sadalanırlar:

```
<yazının adı> = record
        <1 –ci alanın adı> : <1 –ci alanın tipi>;
        ..
        <n –ci alanın adı> : <n –ci alanın tipi>;
        end;
```

Məs. Tələbələrin -ad, soy ad, təvəllüd, orta qiymət balı.və s. anket məlumatları bu cür *alanların* köməyilə verilə bilər:

Bu strukturanı “qruppa” adlı bir yazı tipində aşağıdakı kimi verə bilərik:

```
type qruppa = record
        ad, soy_ad : string[20];
        anadan_olub : record
                il : 1979..1984;
                ay : 1..12;
                gün : 1..31;
                end;
        sball : real
end;
```

Yazı-dəyişən isə -məs. qruppa tipi üçün:

```
var Qurban_Qaraca,Pirili_Banu,.. : qruppa;
```

formada verìlərək:

Qurban_Qaraca.soy_ad :=Qaraca, Pirili_Banu.anadan_olub := 21.03.1982,.. və s.

kìmì qìymətləndìrìlìr.

Yazının hər hansı alanı ìlə təmas -qondarma adın köməyìlə:

<yazının adı>.<sahənìn adı>

formada qurulur.

Lakìn qondarma adların tətbìqì, bìr çox hallarda böyük ìfadələrìn meydana çıxması ìlə müşayət olunur. Bu halda bìrləşdìrìcì **with** əmrìndən ìstìfadə etmək daha sərfəlìdìr.

2. *Bìrləşdìrìcì* **with** *əmrì* –proqramda yazı tìpìnìn dəyìşənì:

with < yazı dəyìşənì tìpìnìn adı > do <əmr>;

Verìlmìş əmrdə -adı çəkìlən dəyìşən tìpìnə müvafìq alanların adları verìlə bìlər. Məs. ötən mìsaldan bìr dəyìşənì aşaõıdakı kìmì tərtìb etmək olar:

```
with Pirili_Banu do
        begin
        ad:=`Banu`;
        soy_ad:=`Pirili`;
        with anadan_olub do
                begin
                il:=1980;
                ay:=12;
                gun:=28;
                end;
        orta_bal:4.9
        end;
```

Məsələ 23. Yazı massìvì tìpìndən ìstìfadə etməklə, satışda olan avtomobìllər haqda məlumat almaq üçün proqram tərtìb etməlì. Qìymətì 3000$ -dan az olan modellər və onların buraxılış ìlì barədə ekrana ayrıca arayış çıxarmalı.

Yazı alanları: model -marka, buraxılış ìlì -ìl, və qìymətì -haqq kìmì adlandırsaq aşaõıdakı proqramı yaza bìlərìk.

```
program Avtomobil;
uses Crt;
const       n = 10;
type        avto = record
                    marka:string[15];
```

```
            il, haqq:integer;
            end;
var     a1:array[1..n] of avto;
        i:integer;
begin
        clrscr;
        for i:=1 to n do
            with a1[i] do
                begin
                writeln(`Marka?`);
                readln(marka);
                writeln(Istehsal ili?);
                readln(il);
                writeln(`Haqq?`);
                readln(haqq);
                end;
        writeln;
        writeln(`Firma munasib bilir`);
        for i:=1 to n do
        with a1[i] do
                writeln(marka:15,il:10,`$`,haqq);
        writeln;
        write(`HaqqI 3000$ -dan az olan`);
        writeln(`munasib avtomobil:`);
        for i:=1 to n do
            with a1[i] do
                if haqq < 3000 then
                    writeln(marka:15,il:10);
        readln
  end.
```

Çalışma 23. Ötən proqramda alan tìplərinə *rəng alanı* də əlavə edərək ekrana son yeddì ìlìn buraxılışı olan qırmızı rənglì avtomobìllər barədə məlumat verə bìlən proqram yazın.

§10. Fayllar

1. *Tìplərì tanıtmaqla faylların təşkìlì.* Çox zaman kənar yaddaşda (dìskdə) saxlanan ìrì həcmlı məlumatlarla ìşləmək zərurətì meydana çıxır kì, bu da *fayllar* vasìtəsìlə həyata keçìrìlìr.

Fayl –bir ad altında cəmləşdirilmiş yazı, qrafik, şəkil və s. kimi müxtəlif məzmunlu ünsürlər toplusu olub, əsasən kənar yaddaşda yerləşdirilir. Fayl tipi:

```
type <tipin adı> = file of <baza tipi>;
```

formada və ya bilavasitə dəyişən bölməsində

```
var <dəyişənlərin siyahısıı> = file of <baza tipi>;
```

kimi təqdim edilir.

Məs.

type Saylar = **file of** integer;

1.1 Adlar = **file of string**[24];

var Xronika, kitab, musiqi: **file of record**;

ilkfayl, sonfayl: **file of** boolean;

2. *Fayllarla iş.* Fayllarla iş aparmaq üçün onu əvvəlcə açmaq, lazımı əməliyyat keçirildikdən sonra isə baõlamaq lazımdır. Faylın hər-hansı elementi, başdan başlayaraq ardıcıl arama yoluyla tapılır və faylın sonu isə

```
eof (<faylın adı>);
```

standart məntiqi funksiyası ilə müəyyən edilir. Faylın sonu tapılarkən bu funksiya **true** qiymətini alır.

System modulunun aşaõıdakı proseduralarıyla fayllarla müvafiq əməliyyatlar aparmaq mümkündür:

assiqn(<faylın adı>, (<faylın kənar adı>))	Faylın kənar adı və fayl dəyişəni arasında əlaqə yaratmaq üçün.
reset(<fayl adı>)	Fayldan lazımı hissəni oxumaq üçün.
read(<faylın adı>, <dəyişənin adı>)	Fayldan lazımı hissəni fəal yaddaşa verir
close(<fayl adı>)	faylı baõlayır
rewrite(<fayl adı>)	fayla yazı daxil etmək üçün onu açır
write(<fayl adı>, <dəyişənin adı>)	Fayla məlumat daxil edir.

Burada:

- <faylın adı> -faylın **var** bölməsində dəyişən kimi verilmiş adı,
- <faylın kənar adı> -faylın dırnaq arasında:

‘d:\Kitab\lab1.pas’formada verilmiş –kənar yaddaşdakı adıdır.

Məsələ 24. Kompüterlərin –marka(marka), vinçester tutumu(hdd), fəal yaddaş tutumu(ram) və əməliyyat tezliyi(speed) göstəricilərini əks etdirən fayl tərtib edib ekrana çıxarmalı.

```
program computer1;
uses Crt;
type comp = record
                marka:string[15];
                hdd,ram:real;
                speed:integer;
                end;
                myfile=file of comp;
var  f1:myfile;
        I,n:integer;
        c1:comp;
begin
        clrscr;
        writeln(`Say?:`);
        readln(n);
        assign(f1,`d:\computer`);
        {f1 adda bir fayl ayarlamaq}
        rewrite(f1);
        for I:=1 to n do
                begin
                writeln(`Marka?`);
                readln(c1.marka);
                writeln(`HDD,RAM?`);
                readln(c1.hdd,c1.ram);
                writeln(`Tezlik?`);
                readln(c1.speed);
                {Fayla qeyd aparmaq}
                write(f1,c1);
                end;
        close(f1);              {fayl f1-i qapatmaq}
        writeln('Marka HDD RAM');
        {Oxuma faylI ayarlamaq}
        reset(f1);
        for i:=1 to n do                {fayl ekrana verilir}
                begin {Oxuma davam etdirilir}
                read(f1,c1);
                write(c1.marka:15,c1.hdd:10,c1.
ram:7,c1.speed:8);
                writeln;
                end;
```

```
        readln
end.
```

Çalışma 24. Məlumatları əməlìyyat yaddaşına hər-hansı fayldan **while, read, eof** əmrlərìlə daxìl etməklə 24 –cü məsələnì həll edìn.

Məsələ 25. Ötən proqramda tərtìb olunmuş fayldan, əməlìyyat tezlìyì 166Mr –dən artıq olan kompüterlər barədə məlumat götürüb ekrana çıxarmalı.

```
program Computer166Mr;
uses Crt;
type comp =record
                marka:string[15];
                hdd,ram:real;
                speed:integer;
                end;
        myfile = file of comp;
var  f1:myfile;
        i,n:integer;
        c1:comp;
begin
      clrscr;
      assign(f1,`d:\computer`);
      {Oxuma faylI ayarlamaq}
      reset(f1);
      while not eof(f1)do {fayl sona kimi yoxlanIr}
      begin                                  {fayldan oxuma}
      read(f1,c1);
      if c1.c1speed > 166 then
         writeln(c1.marka:15,c1.hdd:8:2,c1.ram:8:2);
      end;
      readln
end.
```

Çalışma 25. **System** modulunun proseduralapından ìstìfadə etməklə sərbəst seçdìyìnìz bìr faylla əməlìyyat aparan sadə proqram tərtìb edìn.

Ardıcıl arama rejìmìndwn başqa, fayllarla bìrbaşa seçmə yoluyla da ìşləmək mümkündür. Bu cür faylların bìrbaşa k –cı elementìnə read və write əmrlərìnì tətbìq etməzdən əvvəl seek əmrìlə:

```
seek(<faylın adı>, k);
```

kìmì hazırlıq görmək lazımdır.

3. *Mətn faylları.* Yuxarıda tanış olduõumuz -tìp formasında müəyyən edìlən fayl elementlərì kompüter tərəfìndən kodlaşdırılır və həmìn fayllarda düzəlìşlər aparmaq və ya onlara adì mətn redaktorlarını tətbìq etmək mümkün olmur. Odur kì, bìr çox hallarda bu cəhətdən daha münasìb ìmkanlara malìk *mətn faylları*ndan ìstìfadə olunur.

*Mətn faylı*nın elementlərì –hərf, rəqəm, ìşarə və ara(probel) kìmì sìmvollar ardıcıllıõından ìbarət olan sətìrlərdìr. Sətìrdə ünsürlər ara ìlə ayrılır, hər sətìr sonunda keçìd sədəfì qırpılır. Belə faylları mətn redaktoru ìlə tənzìmləmək mümkün olur. Sətìrdə sìmvolun varlıõı **eoln** əfunksìyası ìlə

```
eoln(<faylın adı>);
```

formada müəyyən edìlìr. Sətrìn sonunda bu funksìya **true** qìymətìnì alır.

Mətn faylı **var** bölməsìndə

```
var <dəyìşənlərìn sìyahısı>: text;
```

kìmì verìlìr.

Mətn faylı elementlərìnì **read** və ya **readln** əmrlərìlə

```
read(və ya readln)(<faylın adı>,<parametrlərìn sìyahısı>);
```

kìmì oxumaq mümkündür. readdan fərqlì olaraq readln əmrì sətrìn parametrlər sìyahısında verìlməyən hìssəsìnì oxumur.

Mətn faylına yazı vrite və ya writeln əmrlərì ìlə:

```
write(və ya writeln)(<faylın adı>,<ìfadələrìn sìyahısı>);
```

kìmì verìlìr.

Mətn faylına əlavələr ìsə **append** əmrìlə

```
append(<faylın adı>);
```

formada daxìl edìlə bìlər.

Məsələ 26. Hər-hansı mətn redaktoru ìlə tərtìb olunmuş

	Ç a y l a r	
Nil	6671	2870000
Missisipi	6420	3238000
Amazon	6280	6951000
Ob	5410	2990000
Amur	4416	1855000
Lena	4400	2490000
Konqo	4320	3690000
Niger	4160	2092000
Volqa	3531	1360000

faylını ekrana çıxarıb burada ən uzun çayı və hövzəsi ən böyük olan çayı müəyyən etməlì.

```
program Çaylarfile;
uses Crt;
type Çaylar = record
        ad:string[10];
        uz:integer;{uzunluq}
        al:longint {alan}
        end;
var  bufayl:text;
        buad:Çaylar;
        {maksimal uzunluqlu çayIn adI}
        {maksimal alanlI çayIn adI}
        aduzmax,adalmax:string[11];
        uzmax:integer; {maksimal uzunluq}
        almax:longint; {maksimal uzunluq}
begin
        clrscr;
        uzmax:=0;
        almax:=0;
        writeln(`Ad, Uzunluq(km),Alan(kv.km)`);
        assign(bufayl,`d:\Sular`);
        reset(bufayl);
        while not eof(bufayl)do
                with buad do
                        begin
                        readln(bufayl,ad,uz,al);
                        writeln(ad:10,uz:10,al:15);
                        if uz > uzmax then
                              begin
                              uzmax := uz;
                              aduzmax := ad
                              end;
                         if almax < al then
                              begin
                              almax:=al;
                              adalmax:=ad
                              end;
                        end;
                writeln(`Uzun çayIn adI-`,aduzmax);
```

```
        writeln(`Böyük çayIn adI-`,adalmax);
        readln
    end.
```

Çalışma 26. Azərbaycan çayları üçün BizimÇaylar adlı fayl tərtìb etməklə ötən məsələnì həmìn fayl üçünda həll edìn.

4. *Ünsürlərìn çeşìdlənməsì.* Massìv və fayl tərkìbìndə çeşìdləmə alqorìtmlərìndən -*yerdəyìşmə ìlə artım* üsulunu nəzərdən keçìrək. n element üçün bu üsul:

1- cì mərhələdə

- bìrìncìdən başlayaraq ìlk element cütü müqayìsə olunur və bìrncì böyük olan halda yerdəyìşmə aparılır.
- ìkìncìdən başlayaraq proses təkrarlanır və cəmì n-1 addımdan sonra ən böyük element sona qoyulmuş olur

2 – cì mərhələdə

- 1 –cì mərhələnì, n-2 –addımda təkrarlamaqla ìkìncì böyük ədəd n-1 – cì mövqeyə qoyulmuş olur.

……..

n–1 –cì mərhələdə, nəhayət sonuncu bìr cüt element də müqayìsə olunur və lazım gələrsə yerdəyìşmə aparmaqla çeşìdləmə sona yetìr.

Məsələ 27. 26 –cı məsələdə verìlmìş faylı ekrana çıxararaq onu massìv strukturlu ünsür kìmì fəal yaddaşa ötürməlì. Daha sonra, fayldakı çay adlarını əlìfba sırasına görə düzməklə yenìdən ekrana verməlì.

```
program ABCD_;
uses Crt;
type çaylar = record
        ad:string[10];
        uz:integer;
        al:longint
        end;
        const k =9;
var  bufayl:text;
        buad:çaylar;
        i,j:integer;
        mas:array[1..k] of çaylar;
begin
clrscr;
assign(bufayl,`d:\çaylar`);
reset(bufayl);
```

```
writeln('                Bu fayl');
writeln(`Ad, Uzunluq(km),Alan(kv.km)`);
while not eof(bufayl) do
        begin
        readln(bufayl,buad.ad,buad.uz,buad.al);
        writeln(buad.ad:10,buad.uz:10,buad.al:15);
        mas[k]:=buad;
        end;
close(bufayl);
for i:=1 to k-1 do
    for j:=1 to k-1 do
         begin
         if mas[i].ad > mas[j+1].ad then
               begin
               buad:=mas[i];
               mas[i]:=mas[j+1];
               mas[j+1]:=buad;
               end;
         end;
writeln('                Yeni fayl');
writeln(`Ad, Uzunluq(km),Alan(kv.km)`);
for i:= 1 to k do
        with mas[i] do
          writeln(ad:10,uz:10,al:15);
        readln
end.
```

Çalışma 27. 26 –cı məsələdə verilmiş faylı ekrana çıxararaq onu yazı massivi strukturlu ünsür kimi fəal yaddaşa ötürməklə 27 –ci məsələni həll edin.

§11. Siyahılar

Məlum olduğu kimi, proqramda işlənən hər bir dəyişən üçün fəal yaddaşda əvvəlcədən müəyyən sahə ayrılır və bu sahə də yalnız proqram öz işini qurtardıqdan sonra boşalır. Lakin bir çox məsələlərin həlli zamanı - xüsusilə də siyahılar tərtib edərkən- onların ölçüsü və tələb olunan dəyişənlərin sayı əvvəlcədən bəllì olmur. Təbiidir ki, belə olduqda yaddaşın müəyyən ölçülərə uyğun –yəni statik tənzimlənməsi də mümkünsüz olur və

bu halda *dinamik yaddaş, dinamik dəyişən* və *ox (*yəni *göstərici*) kimi anlayışlardan istifadə etmək zərurəti meydana çıxır.

1. D*inamik yaddaş, dinamik dəyişən* və *ox.* Yaddaşdan dinamik istifadə – dəyişənlərə yalnız zərurì anlarda yer ayırıb lazım olmadıqda isə onu boşaltma prinsipi ilə xarakterizə olunur. Bu şəraitə uyğun seçilmiş dəyişənlər *dinamik dəyişənlər* adlanır. Dinamik dəyişənlərlə işləmək üçün *ox* dedìyimiz xüsusi ünsür tipi müəyyən edilmişdir. *Ox* –təhkim olunduğu dəyişənin yaddaşda yerini deyil yalnız onun tipini müəyyən edir və yalnız zərurì anlarda ona yaddaşdan yer ayrılmasını təmin edir. Ox **-type** bölümündə ^ simvoluyla

```
type <tipin adı> = ^<baza tipi>;
```

kimi şərh olunur.

Bəllì dəyişənlər üçün oxlar **var** bölümündə

```
var <oxların siyahısı> : <tipin adı>;
```

formada təhkim edilir.

Məs. OxSay, OxMas və OxAy göstəricilərini

```
type
        OxSay =^integer;
        OxMas  =^array[1..50] of real;
        OxAy =^Ay;
```

kimi şərh etmək və onları uyğun olaraq s1, s2, s3, m1, m2, aya, ayb, ayc dəyişənlərinə

```
var
        s1, s2, s3:OxSay;
        m1, m2:OxMas;
        aya, ayb, ayc:OxAy;
```

kimi təhkim etmək olar.

Bu cür verilmiş massiv və yazılar üçün kompilyator yaddaşda xüsusi yer ayırmaz və oxıarın özü isə cüzi yer tutar. Dəyişənlərə yalnız onların gərəklì olduğu anlarda, oxların bildirişi ilə

```
new(<dəyişənin oxu>);
```

prosedurası əsasında yer ayrıla bilər və yalnız bundan sonra

```
<dəyişənin oxu>^
```

adlı dinamik dəyişən tanıdıla bilər.

Oxlar üzərində

```
<1 –ci ox> : = <2 –ci ox>;
<ox> : = nil;
```

kimi ünvandəyişmə əməlləri təyin edilmişdir ki: -birinci əməldən sonra hər iki ox 2 –ci üçün nəzərdə tutulmuş yaddaş bölümündən istifadə edər, ikinci əməldən sonra isə artıq ox neytral qalar.

Dinamik dəyişənin tutmuş olduğu yaddaş

```
dispose(<dəyişənin oxu>).
```

kimi tərtib olunmuş dispose proseduru ilə azad edilir.

Oxlar üzərində əməlləri əks etdirən bir proqram nümunəsi verək:

```
program Ox;
var c1, c2 : ^integer;{iki ox verilir}
begin
        new (c1);{c1 –oxuna yer ayarlama}
        new (c2);{c2 –oxuna yer ayarlama}
        c1^ := 5;
        c2^ := 7;
        writeln(c1^, c2^);{ekrana 5, 7 verilir}
        c1 := c2;
        writeln(c1^, c2^);{ekrana 7, 7 verilir}
        c2 := nil;
        dispose(c2){c2 yadda$dan silinir}
        writeln(c1^);{ekrana 7 verilir}
end.
```

Şəkil 1.1. –də bu proqramın fəaliyyət sxemi verilmişdir:



Şəkil 1.1. Ox proqramının fəaliyyət sxemi.

Dinamik dəyişən -hamısı eyni zamanda fəal yaddaşa yerləşməyən çoxsaylı massivlərlə bir proqramın eyni vaxtda işləməsinə də imkanı verir.

Bunun üçün:

- hər massivə **var oxmas1, oxmas2,..:^array…** formada oxlaar təhkim etmək,
- **nev(mas1)** –prosedurasıyla yəni massiv təyin edilir və **mas1^[1], mas1^[2],.. mas1^[i],..**-kimi dinamik dəyişənlər ayarlanır.
- **dispose(mas1)** –yaddaş boşaldılır
- **nev(mas2)** –prosedurasıyla ikinci yeni massiv təyin edilir və ona **mas2^[1], mas2^[2],.. mas2^[i],..**-kimi dinamik elementlər ayarlanır və s.

2. Siyahı –eyni tipdən olan sonlu sayda ünsürün nizamlı düzümüdür. Siyahının hər elementi iki hissədən ibarət olur -onu təşkil edən ünsür və növbəti ünsürü göstərən ox. Bu cür strukturanı, əlbəttə yazı və ox ünsür tipləri ilə aşağıdakı kimi əks etdirmək mümkündür:

```
type  <sìyahı elementìnìn adı> = ^<yazı>;
            <yazı> = record
            <1 –ci ünsür alanı> : <1 –cì ünsür tìpì>;
            ...
            <n –ci ünsür alanı> : <n –cì ünsür tìpì>;
            <ox alanı> : < sìyahı elementìnìn adı>
      end;
```

Məs. 26 –cı məsələdə verìlmìş Çaylar sìyahısını –çaylar, elsiya(sìyahı elementì)yazı tìpìnì çay adlandırsaq, onun üçün tìp və dəyìşənlərì aşağıdakı kìmì təyìn etmək olar:

```
type
        elsiya =^çay;{yazi tipi}
        çay = record;
        ad:string[11];{ad}
        uz:integer;{usunluq}
        al:longint;{alan}
        iz:elsiya;{sonrakI element oxu}
        end;
var elox,elbir,elqabaq,elsonra,:elsiya;
```

